# AZƏRBAYCANDA LAYİQLİ ƏMƏK, ƏHALİNİN İQTİSADİ FƏALLIĞINA DAIR MÜAYİNƏ:

## *CARİ VƏZİYYƏT VƏ PERSPEKTİVLƏR: ƏMƏK STATİSTİKLƏRİN 19-CU BEYNƏLXALQ KONFRANSINDAN İRƏLİ GƏLƏN MƏSƏLƏLƏR*

*Nemət Xuduzadə*, *Əmək statistikası şöbəsi*

*nemath@azstat.org*

*Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi*

***"Azərbaycan Respublikasında yeni Əhalinin iqtisadi fəallığı (İşçi qüvvəsi) müayinəsinin məqsədlərinin müzakirə olunması"na dair tərəfdaşların yüksək səviyyəli görüşü***

Dövlət Statistika Komitəsi, Bakı

23 Oktyabr 2014-cü il

# I. Layiqli əmək

- Ölkə səviyyəsində layiqli əmək istiqamətində monitorinqin aparılması və qiymətləndirilməsi Beynəlxalq Əmək Təşkilatı (BƏT) üçün prioritet məsələ olaraq qalmaqdadır.
- 2008-ci ilin dekabr ayında Əmək Statistiklərinin 18-ci beynəlxalq konfransı tərəfindən bəyənilmiş Layiqli Əmək Göstəriciləri bu sahədə məqsədlərin müəyyənləşdirilməsi mərhələsində etibarlı baza hesab olunur.
- Layiqli əməyin qiymətləndirilməsi üçün nəzərdə tutulan göstəricilər Layiqli Əmək Proqramının (Decent Work Agenda) 4 strateji məqsədi ilə - *əlavə məşğulluğun təmin olunması, əmək fəaliyyətində hüquqların təmin olunması, sosial müdafiənin genişləndirilməsi və sosial dialoqun stimullaşdırılması* - əhatə olunur.

# Milli səviyyədə Layiqli əməyin qiymətləndirilməsi

- ***Qiymətləndirmənin məqsədi:*** BƏT tərəfindən müəyyən edilmiş layiqli əməyin qiymətləndirilməsi indikatorları (göstəriciləri) əsasında milli qanunvericilik bazasını ötən 10 il üzrə təhlil etmək və bu təhlillərin nəticəsi olaraq BƏT-in dəstəyi ilə ölkədə layiqli əməyin təminatı üzrə davamlı fəaliyyət planını hazırlamaq və ***Azərbaycan Respublikasında Layiqli Əməyin Təminatı üzrə Ölkə Proqramını II mərhələdə*** qəbul etmək.

# Milli səviyyədə Layiqli əməyin qiymətləndirilməsi

- 2011-ci ildə BƏT tərəfindən beynəlxalq mütəxəssislər cəlb edilməklə 2000-2010-cu illər üzrə ***Azərbaycan Respublikasının timsalında Layiqli əməyin qiymətləndirilməsi*** prosesi həyata keçirilmişdir və yekun hesabat BƏT-in aşağıdakı web səhifəsində yerləşdirilmişdir.

**http://www.ilo.org/integration/resources/pubs/WCMS_175754/lang--en/index.htm**

- Bu qiymətləndirmədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Dövlət Statistika Komitəsi, Həmkarlar İttifaqları Konfederasiyası və Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının mütəxəsissləri iştirak etmişdir.

# Milli səviyyədə göstəricilər sistemi

- Əmək Statistiklərinin 18-ci beynəlxalq konfransı tərəfindən bəyənilmiş Layiqli Əmək Göstəriciləri bazası əsasında milli səviyyədə hazırlanmış "***Layiqli əməyin göstəricilər sistemi*"*nin ilkin variantı*** Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə razılaşdırılaraq Dövlət Statistika Komitəsinin müvafiq sərəncamı ilə (3 iyun 2013-cü il tarixli, 33/06s nömrəli) təsdiq edilmişdir. Göstəricilər sistemində layiqli əməyin ***10 əsas elementinə və 1 iqtisadi və sosial mühitə dair sahəyə aid olan 70 statistik göstəricinin*** qiymətləndirilməsi, hesablama metodu, izahları və əhatəliliyi, təklif olunan məlumat mənbələri öz əksini tapmışdır.

# Layiqli əməyin qiymətləndirilməsi

Layiqli əməyin iqtisadi və sosial mühiti

| | |
|---|---|
| Məşğulluq imkanları | Daimi və təhlükəsiz iş |
| Adekvat gəlir və məhsuldar iş | Məşğulluq üçün bərabər imkanlar və bərabər rəftar |
| Layiqli iş saatı | Təhlükəsiz əmək şəraiti |
| İşlə bağlı ailə və şəxsi həyat | Sosial təminat |
| Aradan qaldırılması vacib olan məcburi əmək | Sosial dialoq (işçilərin və işəgötürənlərin nümayən-dələrinin iştirakı ilə) |

**qeyd:** Əmək hüquqları =1, məşğulluq imkanları=2, sosial müdafiə=3, sosial dialoq=4

# Layiqli əməyə dair göstəricilər

- ***Layiqli əməyin göstəricilər sistemi*** əsasən aşağıdakı göstəricilərə bölünür:

  i. ***18 əsas* göstərici**

  ii. ***31 əlavə* göstərici**

  iii. gələcəkdə daxil edilməsi mümkün olan ***10 göstərici***

  (yenidən işlənməsi nəzərdə tutulmuşdur.)

  iv. Layiqli əməyin iqtisadi və sosial mühitinə aid ***11 göstərici***

# Məlumat mənbələri

- *Əhalinin siyahıyaalınması*
- *ƏİF (Həmkarlar İttifaqlarına dair məlumatlar daxil edilməklə)*
- *ƏİF-ə və ev təsərrüfatlarında keçirilən digər müayinələrə əlavə edilmiş modullar (əmək haqqı, peşələr, uşaq əməyi və s.)*
- *Demoqrafik səhiyyə müayinəsi*
- *Ev təsərrüfatlarının büdcə (gəlir və xərcləri üzrə) müayinəsi*
- *Uşaq əməyinə dair müayinə*
- *Müəssisə və təşkilatlarda keçirilən müayinələr*
- *İnzibati məlumatlar və milli hesablar*
- *Rəsmi qiymətləndirmə*

# Layiqli əməyə dair əsas göstəricilər

- 15-64 yaşda olan əhalidə məşğul əhalinin xüsusi çəkisi
- İşsizlik səviyyəsi
- Təhsili və məşğulluğu olmayan gənclər (15-24 yaş)
- Qeyri-formal məşğulluq
- İşləyən yoxsulların xüsusi çəkisi
- Əmək haqqı az olan işçilərin sayı (1 saatda əldə olunan median gəlirin 2/3 hissəsindən az)
- Daha çox iş saatında işləyən işçilərin xüsusi çəkisi (həftədə 48 saatdan çox)
- Uşaq əməyi (Əmək Statistiklərinin beynəlxalq Konfransının qətnaməsi əsasında müəyyən edilir)
- Cinslər üzrə peşə ayırmaları

# Layiqli əməyə dair əsas göstəricilər

- Daimi olmayan əsaslarda çalışan məşğul əhalinin xüsusi çəkisi
- Orta və yüksək səviyyəli rəhbər vəzifələrdə çalışanlar arasında qadınların xüsusi çəkisi (Məşğulluq təsnifatı)
- Ölümlə nəticələnən istehsalat zədələnmələrin səviyyəsi
- 65 və yuxarı yaşda pensiya alan əhalinin xüsusi çəkisi
- Sosial təminata dövlət xərcləri (ÜDM-da faizlə)
- Həmkarlar ittifaqlarına üzv olanların xüsusi çəkisi
- Sahibkarlar təşkilatlarına üzv olan təşkilatların xüsusi çəkisi
- Bağlanmış kollektiv müqavilələrin əhatəlilik səviyyəsi
- Fundamental prinsiplər və əmək sahəsində (işdə) ədalət - bu göstəricilərin BƏT tərəfindən işlənməsi nəzərdə tutulur.

# Layiqli əməyin iqtisadi və sosial mühiti

| | 2003 | 2006 | 2008 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|
| ÜDM, mln manat - AZN | 7146.5 | 18746.2 | 40137.2 | 42465.0 | 52082.0 | 54743,7 | 57708,2 |
| Adambaşına ÜDM,Manat | 872.7 | 2208.2 | 4603.7 | 4753.0 | 5752,9 | 5966,1 | 6207,3 |
| ÜDM, əvvəlki ilə nisbətən, % | 111.2 | 134.5 | 110.8 | 105.0 | 100.1 | 102,2 | 105,8 |
| Məşğul əhali, min nəfər | 3972.6 | 4110.8 | 4215.5 | 4329.1 | 4375.2 | 4445,3 | 4521,2 |
| Əmək məhsuldarlığı (Məşğul əhalinin hər nəfərinə düşən ÜDM,AZN | 1798.9 | 4560.2 | 9521.3 | 9809.2 | 11903.6 | 12315,0 | 12763,9 |
| Əmək məhsuldarlığı (Məşğul əhalinin hər nəfərinə düşən ÜDM-in artım səviyyəsi), % | 109.4 | 132.9 | 109.4 | 103.6 | 99.0 | 100,6 | 104,0 |
| Əmək ödənişlərinin ÜDM-də xüsusi çəkisi, % | 22.7 | 17.1 | 14.3 | 16.1 | 14,9 | 16,4 | 16,7 |

# Davamı

| | 2003 | 2006 | 2008 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|
| İnflyasiya səviyyəsi (istehlakçı qiymətlər indeksi) | 2.2 | 8.3 | 20.8 | 5.7 | 7.9 | 1,1 | 2,4 |
| Yoxsulluq həddi, AZN | 35.8 | 58.0 | 78.6 | 98.7 | 107.2 | 119,3 | 125,2 |
| Əhalinin yoxsulluq səviyyəsi, % | 44.7 | 20.8 | 13.2 | 9.1 | 7.6 | 6,0 | 5,3 |

# Məşğulluq imkanları

Ölkə Prezidentinin müvafiq Sərəncamları ilə təsdiq edilmişdir:

- "Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2006-2015-ci illər)" nda nəzərdə tutulmuş ikinci mərhələnin həyata keçirilməsini təmin etmək məqsədilə *"Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üzrə Dövlət Proqramı"* (26 oktyabr 2005-ci il)

- Ölkə əhalisinin məşğulluğu istiqamətində mühüm rolu olan ***"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"*** (27 fevral 2014-cü il).

- ***"2013-2017-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafı Dövlət Proqramı"*** (21 dekabr 2012-ci il).

- ***"2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"*** (15 sentyabr 2008-ci il)

# Orta aylıq nominal əmək haqqı və müəyyən edilmiş Minimum əmək haqqı

| İllər | Minimum əmək haqqı (AZN/USD) | Orta aylıq nominal əmək haqqı (AZN/USD) | Minimum ə/haqqının xüsusi çəkisi (%) |
|---|---|---|---|
| 2003 | **9.0 AZN / 9.2 USD** | **77.4 AZN / 78.8 USD** | 11.6 |
| 2006 | 30.0 AZN / 33.6 USD | 149.0 AZN / 166.8 USD | 20.1 |
| 2007 | 50.0 AZN / 58.3 USD | 215.8 AZN / 251.5 USD | 23.2 |
| 2008 | 75.0 AZN / 91.3 USD | 274.4 AZN / 334.0 USD | 27.3 |
| 2009 | 75.0 AZN / 93.3 USD | 298.0 AZN / 370.8 USD | 25.2 |
| 2010 | 85.0 AZN / 105.9 USD | 331.5 AZN / 413.0 USD | 25.6 |
| 2011 | 93.5 AZN / 118.4 USD | 364.2 AZN / 461.2 USD | 25.7 |
| 2013 | **105.0 AZN / 133.8 USD** | **425.1 AZN / 541.9 USD** | 24.7 |

# II. Əhalinin iqtisadi fəallığına (İşçi qüvvəsi) dair seçmə statistik müayinə (ƏİF)

# ƏİF-in məqsədi

- ***Əsas məqsəd*** – ölkədə ev təsərrüfatlarının seçilməsi əsasında əhalinin iqtisadi fəallığı və onun strukturu haqqında məlumatların dəqiq qiymətləndirilməsidir. Bununla yanaşı, əmək bazarında mövcud vəziyyətin, iqtisadi fəal və qeyri-fəal, məşğul və işsiz əhalinin, eyni zamanda əmək qabiliyyətli yaşda əhalinin sayının qiymətləndirilməsinə və onların cins, yaş qrupları, məşğulluq statusu, iqtisadi fəaliyyət növləri və bu kimi digər bölgülər üzrə məlumatlarının əldə etməsinə imkan verir.

# ƏİF-2003

- BMT-nin İnkişaf Proqramının maliyyə köməkliyi və BƏT-in metodoloji köməyi ilə Dövlət Statistika Komitəsi *ölkədə ilk dəfə 2003-cü ilin may-iyun aylarında ev təsərrüfatlarında əhalinin iqtisadi fəallığının müayinəsini* keçirmişdir.
- Seçmə statistik müayinə ölkədə *mövcud ev təsərrüfatlarının ümumi sayının 0.9 faizini* əhatə etmişdir.
- Əhalinin iqtisadi fəallığının öyrənilməsi üzrə seçmə müayinənin *sorğu anketi 67 sualdan* ibarət olmuşdur.

# ƏİF-2006

- BMT-nin İnkişaf Proqramının və Əhali Fondunun texniki və maliyyə dəstəyi ilə Əmək və Əhalinin Müdafiəsi Nazirliyi və Dövlət Statistika Komitəsi tərəfindən 2006-cı ildə ev təsərrüfatlarında əhalinin iqtisadi fəallığına dair müayinə keçirilmişdir.
- Seçmə statistik müayinə ölkədə mövcud ev təsərrüfatlarının ümumi sayının 0.7 faizini əhatə etmişdir.
- Əhalinin iqtisadi fəallığının öyrənilməsi üzrə seçmə müayinənin sorğu anketi 46 sualdan ibarət olmuşdur.

# Birdəfəlik ƏİF-2003 və 2006

- Müayinələr BƏT-in "Əmək statistikası haqqında" 160 nömrəli Konvensiyası (1985-ci il), "Əmək statistikası haqqında" 170 nömrəli Tövsiyəsi (1985-ci il) və məşğulluq sahəsində statistikanın təşkili üzrə beynəlxalq standartlar əsasında həyata keçirilmişdir.

- Əhalinin iqtisadi fəallığının öyrənilməsi üzrə seçmə müayinələrin sorğu anketi 6 bölmədən - *respondent haqqında məlumat; cari iqtisadi fəallıq; əsas iş; əsas işin əlamətləri; əlavə iş; işsizlik, iqtisadi qeyri-fəallıq* - ibarət olmuşdur.

# ƏİF-in əhatəliliyi

| İllər | Dövriliyi | Ev təsərrüfatlarının sayı | Ölkədə mövcud olan ev təsərrüfatlarının ümumi sayında, faizlə |
|---|---|---|---|
| 2003 | birdəfəlik | 15800 | 0,9 |
| 2006 | birdəfəlik | 12600 | 0,7 |
| 2007-2009 | rüblük | 3200 | 0,2 |
| 2010-2011 | rüblük | 4725 | 0,2 |
| 2012 (I-III rüblər) | rüblük | 7850 | 0,4 |
| 2012-2014 | rüblük | 19882 | 1,0 |

# ƏİF-in əhatəliliyi

***Coğrafi:*** ƏİF iqtisadi rayonlar əhatə olunmaqla bütün ölkə üzrə keçirilir.

***Müayinə ilə əhatə olunan şəxslər:*** ev təsərrüfatlarında yaşayan 15 və yuxarı yaşda olan, ölkədə daimi yaşayan, o cümlədən müvəqqəti xaricə gedən bütün şəxslər.

***Müayinə ilə əhatə olunmayan şəxslər:***

- altı ay və ondan çox digər yaşayış məntəqələrində və ya ölkənin hüdudlarından kənarda ezamiyyətdə olanlar;
- təhsil aldığı yerdə yaşayan tələbələr (şagirdlər);
- həqiqi hərbi xidmətin qulluqçuları;
- xəstəxanalarda altı ay və ondan çox müalicə olunanlar;
- məhkəmənin qərarına görə cəza çəkənlər və ya məcburi müalicə olunanlar.

# Mövcud ƏİF-in sorğu anketinin strukturu

- Əhalinin iqtisadi fəallığının öyrənilməsi ilə bağlı keçirilən seçmə statistik müayinənin sorğu anketi aşağıdakı bölmələrdən ibarətdir:

  - 6 sualdan ibarət ***respondent haqqında məlumatlar***

  - 3 sualdan ibarət ***cari iqtisadi fəallıq***

  - 5 sualdan ibarət ***əsas iş***

  - 14 sualdan ibarət ***əsas işin əlamətləri***

  - 10 sualdan ibarət ***əlavə iş***

  - *14* sualdan ibarət ***işsizlik, iqtisadi qeyri-fəallıq***

  - 1 sualdan ibarət ***gəlir mənbəyi*****.**

# Əmək bazarının əsas göstəriciləri

| | 2003 | 2006 | 2008 | 2010 | 1011 | 1012 | 1013 |
|---|---|---|---|---|---|---|---|
| İqtisadi fəal əhali, min nəfər | 4373,5 | 4402,0 | 4477,7 | 4587,4 | 4626,1 | 4688,4 | 4757,8 |
| Kişilər | 2272,9 | 2283,4 | 2315,8 | 2329,7 | 2354,7 | 2395,3 | 2436,0 |
| Qadınlar | 2100,6 | 2118,6 | 2161,9 | 2257,7 | 2271,4 | 2293,1 | 2321,8 |
| İqtisadi fəal əhalinin səviyyəsi (15+ yaşda əhalidə), % | 71,7 | 67,1 | 65,4 | 64,8 | 64,4 | 64,5 | 64,7 |
| Məşğul əhali, min nəfər | 3972,6 | 4110,8 | 4215,5 | 4329,1 | 4375,2 | 4445,3 | 4521,2 |
| Kişilər | 2066,7 | 2126,4 | 2173,4 | 2227,4 | 2250,0 | 2291,8 | 2337,5 |
| Qadınlar | 1905,9 | 1984,4 | 2042,1 | 2101,7 | 2125,2 | 2153,5 | 2183,7 |
| Məşğul əhalinin səviyyəsi (15+ yaşda əhalidə), % | 65,2 | 62,7 | 61,6 | 61,2 | 60,9 | 61,2 | 61,4 |

# Davamı

| | 2003 | 2006 | 2008 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|
| Məşğul qadınların xüsusi çəkisi,% (15+) | 48,0 | 48,3 | 48,4 | 48,5 | 48,6 | 48,4 | 48,3 |
| İşsizlik səviyyəsi, % | 9,2 | 6,6 | 5,9 | 5,6 | 5,4 | 5,2 | 5,0 |
| Gənclərin işsizlik səviyyəsi, % 15-24 yaş | 18,9 | 14,7 | 14,0 | 14,9 | 14,7 | 14,2 | 13,7 |
| Gənclərin işsizlik səviyyəsi, % 15-29 yaş | 16,4 | 12,2 | 11,0 | 10,8 | 10,7 | 10,3 | 9,9 |
| İqtisadi qeyri-fəal əhalinin səviyyəsi, %, (15+ yaşda) | 30,6 | 35,4 | 38,0 | 33,9 | 29,9 | 30,7 | 33,9 |

# ƏİF-in seçmə şəbəkəsinin yaradılması metodikası

- ***Məlumat bazası:*** əhalinin siyahıyaalınmasının məlumatları istifadə olunur və seçmə vahidi kimi ev təsərrüfatları götürülür. Seçmə hər bir iqtisadi rayon daxilində ev təsərrüfatlarının eyni ehtimalla təmsil olunması prinsipinə əsaslanmaqla formalaşır.

- Seçmə müayinənin aparılmasında *rotasiya metodu* tətbiq olunur.

  - hər növbəti rübdə *ev təsərrüfatlarının 25 faizi* dəyişir.
  - il ərzində proses davam etdirilir və nəticədə IV rübdə *ev təsərrüfatları 75 faiz* dəyişmiş olur.
  - bu formada əvəzetmə həm şəhər, həm də kəndlər üzrə ayrı-ayrılıqda ev təsərrüfatları səviyyəsində aparılır.

# ƏİF-in seçmə şəbəkəsinin yaradılması metodikası

Seçmə *şəhər və kənd daxilində ikipilləli model* əsasında qurulur. seçmə üzrə yerinə yetirilən işlərin ardıcıllığı:

- *şəhər və kənd yaşayış məntəqələri üzrə seçmə planının tərtib edilməsi* (müayinəyə cəlb olunmuş ev təsərrüfatları şəhər və kənd yaşayış məntəqələrindəki ev təsərrüfatlarının sayına mütənasib olaraq bölünür);
- *plana uyğun olaraq reprezentativ məntəqənin seçilməsi*;
- *reprezentativ məntəqələrdən ev təsərrüfatlarının seçilməsi*;
- *seçilmiş ev təsərrüfatlarının ünvanları siyahısının tərtib edilməsi.*

- Müşahidənin yekunlaşdırılması *2 mərhələdə* aparılır.

  i) iqtisadi rayonlar üzrə yekunların hesablanması

  ii) ölkə üzrə yekunun hesablanması.

# Gələcək perspektivlər

**ƏİF-in movcud sorğu anketinin və onun metodologiyasının aşağıda göstərilən çərçivələrdə təkmilləşdirilməsi:**

- Əmək statistiklərinin 19-cu Beynəlxalq Konfransından irəli gələn yeni standartlar çərçivəsində:
  - əmək formaları
  - işçi qüvvəsindən tam istifadə olunmamasının qiymətləndirilməsi
  - əmək qabiliyyətli əhalinin təsnifləşdirilməsi
  - işçi qüvvəsindən kənar qalan əhalinin təsnifləşdirilməsi

- ***Layiqli əməyə dair göstəricilər çərçivəsində təkmilləşdirilmə* - *Açıq müzakirələr*.**

# Diqqətinizə görə təşəkkür edirəm

